AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 20.05.2019 |
| Qeydiyyat nömrəsi | 1000/03/001 |
| Adı | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Kollegiyasının “100/01/004 nömrəli 2013-cü il 30 yanvar tarixli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin “Azərterminalkompleks” Birliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 25.05.2019 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 360.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201905203001 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 24.05.2019 |

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Kollegiyası Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”nin 5.11.6-cı yarımbəndini rəhbər tutaraq,

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Kollegiyasının 100/01/004 nömrəli 2013-cü il 30 yanvar tarixli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin “Azərterminalkompleks” Birliyi haqqında Əsasnamə”nin 1.7-ci bəndində aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Bu vəsaitin sərbəst qalığının Komitənin strukturuna daxil olan qurumların işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə (kollektiv və fərdi qaydada mükafatlandırılmasına, vəzifə maaşlarına əlavənin verilməsinə) yönəldilməsi Komitə sədrinin əmrinə (sərəncamına) əsasən istifadə olunur.”.

2. Hüquqi Təminat İdarəsi (Sənan Muxtarov) bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

3. Qərar aidiyyəti üzrə göndərilsin.

**Kollegiyanın sədri** **Səfər Mehdiyev**